# Vaşinqtonda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb

**Azərbaycanın ABŞ-dəki səfirliyinin təşkilatçılığı ilə Vaşinqtonda yerləşən Corc Vaşinqton Universitetində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**



Tədbirdə səfirliyin əməkdaşları, ABŞ-də səfərdə olan dövlət rəsmiləri, burada yaşayan azərbaycanlı icmanın üzvləri, eləcə də müxtəlif universitetlərdə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Mərasim Ümummilli Lider Heydər Əliyevin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Daha sonra Azərbaycan Respublikasının ABŞ-dəki səfiri Xəzər İbrahim giriş nitqi ilə çıxış edərək diplomatik karyerasının ABŞ-də başladığını və Ümummilli Liderin iki ölkə arasında münasibətlərin dərinləşməsində gördüyü işlərə şahid olduğunu deyib. O bildirib ki, Vaşinqtonda 8 avqust görüşündən sonra ikitərəfli əlaqələrdə növbəti mərhələ başlayıb. Bu əlaqələrin təməli məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxışında Azərbaycanın bu ölkədəki ilk səfiri kimi o dövrdə gedən çətin siyasi proseslərdən və Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ikitərəfli əlaqələrin inkişafı istiqamətində görülən işlərdən danışıb. O, Heydər Əliyevin 1994, 1997 və 1999-cu illərdə ABŞ-yə səfərləri, səfərlərə hazırlıq prosesindən və Heydər Əliyevin ABŞ siyasətçilərində yaratdığı xoş təəssüratdan bəhs edib. Hafiz Paşayev bildirib ki, Ulu Öndər Vətənini sevən güclü diplomat idi və Azərbaycan diplomatiyasının bugünkü uğuru da o dövrdən başlayır.

Ardınca Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov çıxış edərək müstəqil olduqdan sonra Azərbaycanın bütün sahələrdə və xüsusilə energetika, neft-qaz sahələrində gördüyü işlərin xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Onun sözlərinə görə, mürəkkəb geosiyasi və geoiqtisadi vəziyyətdə və çətin regionda neft-qaz layihələrinin həyata keçirilməsi asan iş deyildi. Nazir bildirib ki, Azərbaycanın inkişafında müstəsna rol oynayan neft müqavilələri ABŞ ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Onun sözlərinə görə, Ulu Öndər ABŞ ilə münasibətlərə önəm verirdi və bunun sayəsində enerji sahəsində böyük beynəlxalq müqavilələr öz imzasını tapırdı və gerçəkləşdirilirdi.

Daha sonra Azərbaycan Respublikasının Milli Məclisinin deputatı, Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Səməd Seyidov çıxışında deyib ki, Heydər Əliyevin siyasəti nəticəsində ABŞ ilə münasibətlərin genişlənməsi Azərbaycan üçün Avropaya qapıları da açıb. O bildirib ki, ABŞ ilə əlaqələr, imzalanmış müqavilələr Ulu Öndərin ən böyük nailiyyətlərindən biri olub və bu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Deputat əlavə edib ki, Azərbaycanın bugünkü uğuru dövlət başçısının siyasəti və Ulu Öndərin fəlsəfəsi ilə bağlıdır.

Tədbirin sonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə hazırlanan və Ümummilli Lider Heydər Əliyevə həsr olunan "İz" sənədli filmi nümayiş etdirilib.

Sonda universitetin foyesində Ulu Öndərin ABŞ-yə səfərləri və ikitərəfli görüşlərdə iştirakı ilə bağlı fotosərgi təqdim olunub.

Azərbaycan. - 2025.- 13 dekabr (№ 263).- S.6.